## Ümumi məlumat

“Kodeks Alimentarius” Komissiyası (ingiliscə adı – Codex Alimentarius Commission) BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən 1963-cü ildə qida məhsulları standartlarının işlənib hazırlanması məqsədilə yaradılmışdır. “Birgə Qida Standartları Proqramı” çərçivəsində təsis edilmiş 189 (188 üzv ölkə və bir təşkilat – Avropa İttifaqı) üzvü olan hökumətlərarası orqandır. Kodeksin əsas məqsədi istehlakçıların sağlamlığının qorunması, beynəlxalq ərzaq ticarətində ədalətli qaydaların təmin edilməsi və qida təhlükəsizliyi üzrə harmonizasiya olunmuş standartların hazırlanmasıdır.

Azərbaycan Respublikası 2011-ci ildən Kodeks Alimentarius Komissiyasının üzvüdür. Ölkəmiz Kodeks standartlarının milli qanunvericilikdə tətbiqi, beynəlxalq təcrübənin öyrənilməsi və qida təhlükəsizliyinin təkmilləşdirilməsi məqsədilə bu platformada fəal iştirak edir. Kodeks Alimentarius Komissiyası ilə olan əməkdaşlıq ölkəmizdə qida məhsullarının beynəlxalq standartlara uyğunluğunu təmin etməklə yanaşı, "Made in Azerbaijan" brendi altında istehsal olunan qida məhsullarının dünya bazarına çıxışını asanlaşdırmağa xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə AQTA Kodeks Alimentarius Komissiyasında Azərbaycan Respublikasının milli əlaqələndirici qurumu təyin edilmişdir. https://www.fao.org/fao-who-codexalimentarius/about-codex/members/detail/en/c/23904/

Agentlik tərəfindən Kodeks Alimentarius standartlarının uyğunlaşdırılması istiqamətində normativ-hüquqi aktların hazırlanması, eləcə də qida zəncirində təhlükəsizliyin təmin edilməsi üzrə müvafiq layihələr həyata keçirilir.